Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

# Hər bir vətəndaşın ilk borcu, vətənini sevməkdir

"Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq-budur vətənpərvərlik" - Heydər Əliyev



**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi, onların vətənpərvər ruhda tərbiyə olunması istiqamətində gənclər təşkilatlarının da üzərinə böyük vəzifə düşür. Gənclərdə milli mənlik şüurunun və vətənpərvərlik hisslərinin tərbiyəsi yönündə bir sıra kompleks tədbirlər həyata keçirilir. Azərbaycan müharibə şəraitindədir, torpaqlarımızın 20 faizi işğal olunub, çoxlu sayda vətəndaşımız yurd-yuvalarından didərgin düşüb. Belə bir şəraitdə biz gənclərimizin milli mənlik şüurunun inkişaf etdirilməsinə, onların vətənpərvərlik ruhunun artırılmasına çox əmək sərf etməliyik.**

Azərbaycan gənci kifayət qədər vətənpərvər və milli mənlik şüuru formalaşmış bir durumdadır. Bundan sonrakı çalışmalarımızda vətənpərvərliklə bağlı fəaliyyətlərin daha da koordinasiya olunmuş, sistemli bir şəkildə keçirilməsinə, daha çox nəticə əldə olunmasına çalışmağımız lazımdır. Sevindirici haldır ki, bu gün əsgər və zabitlərin Ali baş komandanı cəbhə xəttində görmələri onlara böyük ruh yüksəkliyi verir. Bu, dövlər başçısı İlham Əliyevin orduya xüsusi diqqəti və qayğısı kimi qiymətləndirilir. Müharibə şəraitində olan bir ordunun ali baş komandanının hərbçilərimizlə əyani şəkildə görüşməsi hərbçilərimizdə, eyni zamanda xalqımızda dövlətə, orduya olan inamı daha da artırır.Dövlət başçısının hərbçilərlə görüşü zamanı etdiyi çıxışlar onları daha da ruhlandırır. Bu səfərlər eyni zamanda ordu rəhbərliyinin məsuliyyətini daha da artıran məqamlardandır. Onlar Ali baş komandanın birbaşa diqqətini gördükcə məsuliyyətlərini daha da artırırlar. Bütün bunlar hamısı son dövtlər ordumuzun cəbhə xəttində düşmənin təxribatlarına layiqli şəkildə cavab verməsində də özünü bariz şəkildə göstərir. Dövlət başçısını cəbhədə görən hərbçilərimiz daha da ruhlanırlar. Bu siyasət davam edəcək, düşmənlərimiz bundan sonra da layiqli cəzalarını alacaqlar. Vətəni sevməyən insan yoxdur. Biz vətənimizi doğulduqdan sonra instinkt olaraq sevirik. Mən burada doğulmuşam, qanım bura bağlıdır, bu torpağın enerjisindən yaranmışam, bu torpaqda bitən meyvələri yeyərək valideynim məni dünyaya gətirib. Həmin meyvələrin, qidaların yaratdığı enerji şüuraltına keçib. Vətən sevgisininin tibbi və bioloji izahı var. Sən istəsən də bu vətənə qarşı gələ bilməzsən, çünki şüuraltı olaraq bu torpağa bağlısan. Müəyyən şeylərin əleyhinə getmək olar, amma bütünlüklə bu torpağın suyunun, çayının dağının, insanının əleyhinə gedə bilməzsən. Hər kəs Vətənini sevməlidir. Çünki, Azərbaycan təkcə bizim yox, babalarımızın, atalarımızın və övladlarımızın doğulduğu məkanın adıdır. Bu torpağa hamımızın həm fiziki, həm də ruhi bağlılığımız var. Hər bir vətəndaşın ilk borcu vətənini sevməkdir. Əgər o, Azərbaycanda doğulubsa, torpağını sevməlidir. Vətən o qədər müqəddəsdir ki, ona anamızın adını veririk, danışdığımız dilə anamızın dili deyirik. Hər bir soydaşımız vətənini sevməlidir, Azərbaycanımız uğrunda hərəkət etməlidir. Ümummilli dəyərlər, maraqlar həmişə nəzərə alınmalıdır. Azərbaycan müstəqil olduqdan sonra biz bu tip mövzulara daha çox ehtiyac hiss edirik. Sovet dönəmində müəyyən təzyiqlərə görə insanlar vətənpərvərlik hisslərini gizlətməyə məcbur olurdular. Müstəqil dövlətimiz isə vətənpərvər insana ehtiyac hiss edir. Hər birimiz üçün bu mövzu çox əhəmiyyətlidir. Yazıçılar, ziyalılar bu barədə düşünməlidirlər. Gənclərin vətənpərvərlik, dövlətə və xalqa məhəbbət ruhunda tərbiyə edilməsi ən mühüm məsələlərdən biridir. Bu cür tərbiyə işini həyatla ələqələndirmək üçün gənclərimiz xalqımızın adət-ənənələrinə hörmət ruhunda tərbiyələndirilir, onlarda yüksək vətənpərvərlik hissi inkişaf etdirilir. Eyni zamanda, gənc nəslin nümayəndələri Vətənin müdafiəsinə hazır olmaq ruhunda tərbiyə olunur, milli dəyərlərimizə zidd təzahürlərə qarşı qətiyyətli mübarizə aparan insanlar kimi formalaşır.Ümummilli lider Heydər Əliyev deyirdi: "Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq-budur vətənpərvərlik". Ümumilikdə, vətənpərvərlik məfhumu öz məzmununa görə çoxşaxəlidir və onu heç bir sözlə əvəz etmək mümkün deyil. Bu hisslər uşaqlarda tədricən, necə deyərlər, mərhələ-mərhələ formalaşır. İnsan dünyanı dərk etdikcə Vətəninə, torpağına məhəbbəti, sevgisi artır, vətənpərvərlik hissləri güclənir. Bütövlükdə, sözügedən hiss öz dövlətinin tərəqqisi üçün can yandırmaq, doğma xalqının tarixi və mədəniyyəti ilə fəxr etmək, Vətənin rifahı naminə əlindən gələni etmək deməkdir. Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi bir sıra faktorların vəhdətindən keçir. Həmin faktorlar bir-biri ilə sıx bağlıdır. Ona görə də nəzərə almaq lazımdır ki, mənəvi dəyərlərin, vətənpərvərlik hisslərinin əsası ailədə, məktəbəqədər tərbiyə müəssisələrində, orta məktəblərdə qoyulur. Milli şüur millətə, xalqa aid xüsusiyyətləri hər hansı bir fərdin özündə cəmləşdirmək bacarığıdır. Belə ki, burada vicdan, milli mənlik mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda gənclərin inkişafı, onların gələcəyi baxımından məqsədyönlü siyasət həyata keçirilir. Aydın məsələdir ki, bütün bunların qarşılığında gənclik də öz potensialından istifadə edərək doğulduğu torpaq, yaşadığı ölkə, Vətəni üçün əlindən gələni əsirgəməməlidir. Gənclərdə milli vətənpərvərlik hissləri güclü olmalıdır. Xüsusən də Azərbaycan gəncinin vətənpərvər olması vacibdir. Hər bir Azərbaycan gənci bilməlidir ki, torpaqlarımızın 20 faizi işğal altındadır, məcburi köçkünlərimiz var. Belə olan halda, heç şübhəsiz ki, torpaqlarımızın işğaldan azad edilməsi üçün gənclərimizdə vətənpərvərlik ruhu günü-gündən yüksələcək. Gənclərdə vətənpərvərlik hissinin aşılanması, formalaşdırılması məhz məktəblərin üzərinə düşən vəzifələrdəndir. Vətənpərvərlik hissi uşaqlarda körpə yaşlarından formalaşdırılmalıdır. Torpaqlarımızın işğal altında olduğu bir şəraitdə uşaqlarda Vətənə, torpağa sevgi, məhəbbət hissini formalaşdırmaq məqsədilə müxtəlif tədbirlər həyata keçirilir. Hər bir cəmiyyətin gələcəyi onun yetişməkdə olan gənc nəslidir.Gənclik bir xalqın gələcəyini, onun inkişaf yolunu müəyyən edən, cəmiyyətin ictimai-siyasi həyatında ön sıralarda gedən aparıcı qüvvədir. Məhz bu gün gənclərimizin hər bir sahədə qazandığı uğurlar ölkəmizin inkişaf səviyyəsini, yüksəlişini, ictimai-siyasi potensialını təbliğ edən ən vacib meyarlardandır. Dövlətimiz də bu meyarı dəyərləndirərək gənclərimizdən diqqət və qayğısını əsirgəməyib, hər zaman onların yanında olaraq qabiliyyət və imkanlarını inkişaf etdirmək üçün lazımi göstərişlərini verib. Ümummilli lider Heydər Əliyev: "Əziz gənclər! Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Siz müstəqil Azərbaycanımızı XXI əsrdə yaşadanlar, quranlar və inkişaf etdirənlərsiniz. Biz müstəqil Azərbaycanın taleyini sizə etibar edib, tapşıracağıq. Ona görə də Azərbaycan dövlətini yaşatmaq və inkişaf etdirmək üçün hazır olun. Azərbaycanın gələcəyi bütövlükdə sağlam düşüncəli gənclərdən asılıdır" - deyərkən gənclərimizin firavan gələcəyinə böyük ümidlər bağlamış, onların hərtərəfli fəaliyyət göstərmələri üçün lazımi tədbirlər həyata keçirmişdi. Bildiyiniz kimi 7 iyul 2011-ci il tarixində cənab Prezident İlham Əliyev "Azərbaycan Gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Bu proqramın təsdiq edilməsi ölkəmizdə gənclərə olan diqqət və qayğının bariz nümunəsidir. Gənclərin vətənpərvərlik, dövlətimizə və xalqımıza məhəbbət ruhunda tərbiyə edilməsi ən mühüm sahələrdən biridir. Bütün tərbiyə işini həyatla əlaqələndirmək üçün məktəbdə ictimai inkişaf qanunları şagirdlərə başa salınmalı, məktəbliləri xalqımızın adət-ənənələrinə hörmət ruhunda tərbiyələndirməli, onlarda yüksək vətənpərvərlik hissi inkişaf etdirilməlidir. Eyni zamanda, məktəbliləri vətənin müdafiəsinə hazır olmaq ruhunda tərbiyə etmək, milli dəyərlərimizə zidd təzahürlərə qarşı qətiyyətli mübarizə aparan insanlar kimi formalaşdırmaq lazımdır. Sevindirici haldır ki, gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi istiqamətində rayon və paytaxt məktəblərində bu yöndə lazımi işlər aparılır. Uşaqlarla Vətəni qorumaq və sevməklə bağlı müxtəlif mövzularda söhbətlər edilir. Milli mənlik şüuru özünüdərk deməkdir. Milli özünüdərk deyəndə, ilk növbədə insan bağlı olduğu tarixi kökü, milli mənsubiyyətini, Vətəninin tarixini bilməli və dərindən təhlil etməyi bacarmalıdır. Hər bir gənc, vətəndaş dərk etməlidir ki, hansı Vətəni, milləti, milli xüsusiyyətləri təmsil edir.Gənclərin vətənpərvərlik, dövlətimizə və xalqımıza məhəbbət ruhunda tərbiyə edilməsi ən mühüm sahələrdən biridir. Bu cür tərbiyə işini həyatla əlaqələndirmək üçün gənclərimiz xalqımızın adət-ənənələrinə hörmət ruhunda tərbiyələndirilir, onlarda yüksək vətənpərvərlik hissini inkişaf etdirilir. Eyni zamanda, gənc nəslin nümayəndələri vətənin müdafiəsinə hazır olmaq ruhunda tərbiyə olunur, milli dəyərlərimizə zidd təzahürlərə qarşı qətiyyətli mübarizə aparan insanlar kimi formalaşırlar.

Yazı Azərbaycan Respublikası Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap edilmişdir